**Fəxrəddin Bayram oğlu Babazadə**

**Əkbər Səttar oğlu Hüseynov**

**UOT:336.246.8; JEL:E6;L83.**

# Mehmanxana fəaliyyətinin tənzimlənməsində dövlət maliyyəsi sub-indeksinin təsiri

***Xülasə***

*Turizmin qeyri-neft sektorunda prioritet olması nəticəsində son illərdə mehmanxana biznesinin sürətli inkişaf yollarını müəyyən etmək mümkündür. Tədqiqatın əsas məqsədi mehmanxana biznesinin maliyyə problemlərini və onun həll yollarını tapmaqdan ibarətdir. Digər tərəfdən, bu məqalədə Azərbaycanda mehmanxana sektorunun düzgün inkişafı və bu sahədəki iqtisadi resusrslardan səmərəli istifadə edilməsi məsələlərinə də aydınlıq gətirilmişdir. Aparılan hesablamalar nəticəsində mehmanxana fəaliyyətində ölkələrin maliyyə tənzimləmələrinin müəyyən səviyyələrdə bu sektora müsbət və mənfi tərəfləri təhlil edilmişdir.*

***Açar sözlər:*** *mehmanxana biznesi, dövlət maliyyəsi, bazar münasibətləri, ictimai istehsal, vergi dərəcələri, büdcə sistemi, rəqabətqabiliyyətlilik indeksi*

## Giriş

Dövlət maliyyə sistemi - iqtisadi və bazar münasibətləri sistemindəki dəyişikliyi, quruluşu və eyni zamanda inkişafı tənzimləyən, ÜDM dövriyyəsinin strukturu və sosial-iqtisadi tənzimləmə dinamikasına görə fiziki komponentlərin ən güclü amillərindən biri olmuşdur. Müasir şəraitdə maliyyə sisteminin dövlətin inkişafında rolu çox böyükdür. Dövlət iqtisadi fəaliyyətin və sosial sferanın tənzimlənməsində əsas rol oynayır. Dövlət maliyyəsi milli iqtisadiyyatda böyük əhəmiyyətə malikdir və aşağıdakı sahələrə təkan verməklə iqtisadiyyatı inkişaf etdirir: elmi-texniki potensialın artırılmasına, ictimai istehsalın quruluşunun yenidən qurulmasına, iqtisadiyyatın inkişafına və müəssisələrin modernləşdirilməsinə. Buna görə dövlətlər maliyyə sistemi vasitəsi ilə ölkədə öz iqtisadi-sosial funksiyalarını həyata keçirir [1]. Dövlət maliyyəsi sisteminin strukturu və inkişaf xüsusiyyətləri ölkədən-ölkəyə dəyişir və hər birində özünəməxsus xüsusiyyətlərə malikdir. Dövlət maliyyəsinin tərkibinə dövlət krediti, büdcə sistemi, dövlət müəssisələrinin maliyyəsi, büdcədənkənar fondlar aid edilir. Bu vəsaitlərin hər biri, qarşıya yönəldilmiş xüsusiyyətlərə uyğun olaraq, ölkə potensialının güclənməsi üçün geniş iqtisadi və sosial proseslərə təsir göstərir [5;6]. Tədqiqatın məqsədi mehmanxana biznesinin maliyyə problemlərini və onun həll yollarını tapmaqdan ibarətdir və ən əsası ölkənin mehmanxana fəaliyyətinin dövlət maliyyəsi sub-indeksi üzrə reytinqdə irəliləməsinin əhəmiyyətini göstərməkdən ibarətdir.

## Metodologiya

İqtisadiyyatın sağlığı-solluğu üzrə dövlət maliyyəsi sub-indeksi gəlirlərin vergilər vasitəsi ilə yenidən bölünməsinin səviyyəsini ifadə edir və öz növbəsində iki alt-indeksin – büdcə xərcləri alt-indeksinin və müəssisələrin vergi yükü alt-indeksinin cəbri ortası kimi hesablanmışdır [4]. Biz bu sub-indeks əsasında tədqiqat planımıza uyğun aşağıdakı göstəriciləri də nəzərə alıb müəyyən hesablamalar aparmışıq. Bu sub-indeks dövlət büdcələrindən turizm və mehmanxanalara ayırmaları ilə mehmanxanalara tətbiq olunan vergi dərəcəsinin ədədi ortası kimi hesablanmışdır.

$$M(s)i = \frac{VD_i + DBA_i}{2}$$

Burada: $VD_i$ – Mehmanxanalara tətbiq olunan vergi dərəcəsinin indeksləşdirilmiş nəticəsi, $DBA_i$ – Dövlətlərin büdcələrindən turizm və mehmanxanalara ayırmalarının

©Fəxrəddin Bayram oğlu Babazadə AMEA İqtisadiyyat İnstitutu, Əkbər Səttar oğlu Hüseynov AMEA İqtisadiyyat İnstitutu e.i.
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

indekləşdirilmiş nəticəsidir. Mehmanxananın vergi dərəcəsi. Mehmanxananın vergi dərəcəsi müəssisənin mənfəətinə verginin nə qədər təsir göstərdiyini (mənfəətə təsiri faiz ilə) ölçmək üçündür. Yəni, mehmanxana bir il ərzində qazandığı mənfəətdən neçə faizini vergiyə ödəyir. Buraya mənfəət vergisi, gəlir vergisi, əmlak vergisi, sosial ödənişlər və digər kiçik vergilər aiddir. Bu göstərici Dünya Bankının "Səyahət və turizmin rəqabətqabiliyyətlilik indeksi"ndən götürülmüşdür.

$$VD_i = \frac{VD}{100}$$

Dövlət büdcələrindən turizm və mehmanxanalara ayırmalar. Bu göstəricinin hesablanması mexanizmi dövlət büdcəsindən turizm və mehmanxana sektoruna nəzərdə tutulmuş illik ayırmaların, həmin il üçün dövlət büdcəsindən iqtisadiyyata çəkilən ümumi xərcləmələrinə faiz nisbəti ilə götürülmüşdür. Bu göstəricidə Dünya Bankının statistikalarından istifadə edilmişdir.

$$DBA_i = \frac{DBA}{100}$$

**Tədqiqatın nəticələri və onların müzakirəsi**

Dövlət maliyyəsi sub-indeksi dövlətin maliyyə mexanizmləri vasitəsi ilə mehmanxana sektoruna təsir səviyyəsini əks etdirir və öz növbəsində iki alt göstəricinin – turizm və mehmanxanalara dövlət büdcəsinnən ayırmaları göstəricisi *və* mehmanxanalara tətbiq olunan vergi dərəcəsi göstəricilərinin ədədi ortası kimi hesablanmışdır. Turizm və mehmanxanalara dövlət büdcəsinnən ayırmaları göstəricisi, bu sektora ayırmaların umumi dövlət büdcəsi ayırmalarının tərkibində faizlə ifadəsi kimi göstərilmişdir. Faktiki statistikalar Dünya bankının bazalarından əldə edilmişdir *(*World Bank Database*)* [7;8].



**Cədvəl 1.**

**Dövlət büdcəsindən turizm və mehmanxanalara çəkilən xərclərin ümumi payı (faiz dərəcəsi ilə)**

| ÖLKƏLƏR | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| **1. Sinqapur** | 10,27 | 10,28 | 10,29 | 10,31 | 10,32 |
| **2. Yunanıstan** | 7,96 | 7,98 | 8 | 8,03 | 8,05 |
| **3. Misir** | 6,81 | 6,83 | 6,85 | 7,46 | 7,83 |
| **4. Qazaxıstan** | 4,16 | 4,17 | 4,18 | 4,2 | 4,21 |
| **5. Çin** | 3,97 | 3,99 | 4,01 | 4,02 | 4,04 |
| **6. Gürcüstan** | 3,37 | 3,38 | 3,39 | 3,4 | 3,41 |
| **7. Latviya** | 3,12 | 3,13 | 3,15 | 3,16 | 3,18 |
| **8. Litva** | 3,1 | 3,11 | 3,13 | 3,14 | 3,16 |
| **9. Azərbaycan** | 3 | 2,98 | 2,94 | 2,95 | 2,96 |
| **10. Rusiya** | 2,7 | 2,7 | 2,71 | 2,72 | 2,73 |
| **11. ABŞ** | 1,79 | 1,8 | 1,81 | 1,82 | 1,83 |
| **12. Türkiyə** | 1,72 | 1,74 | 1,74 | 1,72 | 1,65 |
| **13. Kanada** | 1,49 | 1,49 | 1,5 | 1,51 | 1,52 |
| **14. İspaniya** | 1,47 | 1,46 | 1,46 | 1,46 | 1,46 |
| **15. Avstraliya** | 1,3 | 1,31 | 1,31 | 1,33 | 1,34 |
| **16. Meksika** | 1,22 | 1,23 | 1,22 | 1,22 | 1,23 |

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

| | | | | | |
|---|---|---|---|---|---|
| **17. Yaponiya** | 0,89 | 0,89 | 0,9 | 0,92 | 0,92 |
| **18. İtaliya** | 0,77 | 0,77 | 0,77 | 0,77 | 0,77 |
| **19. Fransa** | 0,59 | 0,59 | 0,59 | 0,59 | 0,59 |
| **20. Böyük Britaniya** | 0,61 | 0,6 | 0,59 | 0,6 | 0,59 |
| **21. Almaniya** | 0,41 | 0,4 | 0,4 | 0,4 | 0,4 |

**Mənbə:** World Bank statistic 2014-2018.
https://tcdata360.worldbank.org/indicators/govt.tat.spend?country=BRA&indicator=24663&viz=line_chart&years=1995,2028

Ölkələr üzrə 2018-ci ildə dövlət büdcəsindən turizm və mehmanxanalara çəkilən xərclərin ümumi iqtisadiyyata çəkilən xərclərdəki pay nisbətinə görə ilk beşlikdə Sinqapur (10,32%), Yunanıstan (8,05%), Misir (7,83%), Qazaxıstan (4,21%) və Çin (4,04%) yer almışdır. Bu göstərici üzrə son beşlikdə isə Almaniya (0,4%), Böyük Britaniya (0,59%), Fransa (0,59%), İtaliya (0,77%) və Yaponiya (0,92%) yer almışdır. Azərbaycanda dövlət büdcəsindən turizm və mehmanxanalara çəkilən xərclərə görə 2,95 faiz göstəricisi ilə ABŞ (1,83%) Kanada (1,52%), İspaniya (1,46%) və Avstraliya (1,34%) kimi (adambaşına hesablanan ÜDM-i 35 min dollardan daha çox olan) inkişaf etmiş ölkələrdən, həmçinin Rusiya (2,73%), Türkiyə (1,65%) və Meksika (1,23%) kimi İEOÖ-lərə nisbətdə daha yaxşı nəticə göstərərək ilk onluqda (9-cu yerdə) yerləşmişdir. Dünya ölkələrində mehmanxanaların böyük bir hissəsini özəl sektor təşkil edir və ölkələr bu sektora dövlət tərəfindən maliyyə vəsaiti ayırmaları demək olar ki yoxdur [2]. Lakin, ölkələr turizm sektorunu inkişaf etdirmək üçün dövlət büdcələrindən ayırmalar edirlər. Bu ayırmalar parkların salınması, istirahət zonalarının yaradılması, tarixi abidələrin yenidən bərpası və qorunmasına yönəldilir. Bu ayırmalar istər-istəməz mehmanxana sektorununda inkişafa gətirib çıxarır. Turizm və mehmanxanalara dövlət büdcələrinən ayırmalar bütün ölkələrdə eyni səviyyədə ola bilməz [3]. Bunun da əsas səbəbi ölkələrin inkişaf səviyyəsidir. Misal olaraq ABŞ-ın dövlət büdcəsiylə Azərbaycanın dövlət büdcəsi eyni səviyyədə ola bilməz. Bu səbəbdən göstərici olaraq dövlət büdcəsindən turizm və mehmanxanalara ayırmaların payını ümumi ayırmaların payına nisbətində götürülmüşdür. Cədvəldən görmək olar ki, Sinqapur turizm sektorunu özünün prioritet iqtisadi sahəsi kimi götürmüşdür. Bununda nəticəsi olaraq, son illərdə bu ölkə turizm sektorunun inkişaf səviyyəsinə görə ön pillələrdədir. Sinqapurun turizm sektoruna yatırım modeli Azərbaycanda tətbiqi imkanları nəzərdən keçirilə bilər.



Ölkələr üzrə 2018-ci ildə dövlət mehmanxanalara tətbiq olunan vergi dərəcəsinin sərtliyinə görə ilk beşlikdə Çin (64,9%), Fransa (60,4%), İtaliya (53,1%), Meksika (53,0%) və Yunanıstan (51,9%) yer almışdır. Bu göstərici üzrə son beşlikdə isə Gürcüstan (9,9%), Kanada (20,5%), Sinqapur (20,6%), Qazaxıstan (29,4%) və Böyük Britaniya (30,0%) yer almışdır. Azərbaycanda mehmanxanalara tətbiq olunan vergi dərəcəsinə görə 40,8 faiz göstəricisi ilə ABŞ (43,8%) Yaponiya (46,7%), İspaniya (47,0%) və Avstraliya (47,4%) kimi (adambaşına hesablanan ÜDM-i 35 min dollardan daha çox olan) İEÖ-dən, həmçinin Türkiyə (40,9%), Litva (42,6%) və Rusiya (46,3%) kimi İEOÖ-dən nisbətdə sahibkarlar üçün daha əlverişli mühit formalaşdıraraq birinci onluqda (7-ci yerdə) yerləşmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Cədvəl 2.**

**Mehmanxanalara tətbiq olunan vergi dərəcəsi**

| ÖLKƏLƏR | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| 1. Gürcüstan | 16,4 | 16,4 | 16,4 | 16,4 | 9,9 |
| 2. Kanada | 21,0 | 21,0 | 21,0 | 21,0 | 20,5 |
| 3. Sinqapur | 18,4 | 18,4 | 19,1 | 19,1 | 20,6 |
| 4. Qazaxıstan | 28,6 | 28,6 | 29,2 | 29,2 | 29,4 |
| 5. Böyük Britaniya | 33,7 | 33,7 | 30,9 | 30,9 | 30,0 |
| 6. Latviya | 35,0 | 35,0 | 35,9 | 35,9 | 36,0 |
| 7. Azərbaycan | 39,8 | 39,8 | 39,8 | 39,8 | 40,8 |
| 8. Türkiyə | 40,1 | 40,1 | 41,1 | 40,1 | 40,9 |
| 9. Litva | 42,6 | 42,6 | 42,7 | 42,7 | 42,6 |
| 10. ABŞ | 43,8 | 43,8 | 44,0 | 44,0 | 43,8 |
| 11. Rusiya | 48,9 | 48,9 | 47,4 | 47,4 | 46,3 |
| 12. Misir | 45,0 | 45,0 | 43,5 | 43,5 | 46,4 |
| 13. Yaponiya | 51,3 | 51,3 | 48,9 | 48,9 | 46,7 |
| 14. İspaniya | 58,2 | 58,2 | 49,0 | 49,0 | 47,0 |
| 15. Avstraliya | 47,3 | 47,3 | 47,6 | 47,6 | 47,4 |
| 16. Almaniya | 48,8 | 48,8 | 48,9 | 48,9 | 49,0 |
| 17. Yunanıstan | 49,9 | 49,9 | 50,7 | 50,7 | 51,9 |
| 18. Meksika | 51,8 | 51,8 | 52,0 | 52,0 | 53,0 |
| 19. İtaliya | 65,4 | 65,4 | 62,0 | 62,0 | 53,1 |
| 20. Fransa | 66,6 | 66,6 | 62,8 | 62,8 | 60,4 |
| 21. Çin | 64,6 | 64,6 | 68,0 | 68,0 | 64,9 |

Mənbə: The Travel and Tourism Compotitivness İndex 2015-2019.
http://reports.weforum.org/travelandtourismcompetitivenessreport2019/rankings/#series=CORPTAXRATE



Statistikalardan görmək olar ki, İEOÖ-lər İEÖ-lərə nisbətdə vergi sistemində turizm və mehmanxana sektoruna daha az faiz tətbiq edirlər. Bunun əsas səbəbi həmin ölkələrdə digərlərinə nisbətdə bu sektoru investisya mühiti üçün əlverişli şəraitə gətirməkdən ibarətdir. Vergi sistemində belə bir iqtisadi siyasət müsbət haldır. Çünki vaxtı ilə İEÖ-lərin praktikalarında da bunu müşayiət etmək olar. İndiki dövrdə turizm və mehmanxana sektoruna ən az vergi tətbiq edən ölkə olan Gürcüstanı analiz etsək görərik ki, son illərdə bu sektora dövlət tərəfindən maliyyə dəstəyi sayəsində bu sahə inkişaf etmişdir. Bu səbəbdən həmin sektorun əlində pul vəsaiti artaraq özlərində mehmanxana şəbəkəsi yaratmağa imkan vermişdir. Burdan belə naticəyə gəlmək olar ki, mehmanxana sektorunu inkişaf etdirmək üçün

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

öncə müəyyən müddətlik bu sektora güzəştlər tətbiq olunmalıdır. Bu güzəştlər vergi sisteminin fərqliliyinə görə dəyişə bilər.

**Cədvəl 3.**

**Dövlət maliyyəsi sub-indeksi üzrə nəticələr**

| ÖLKƏLƏR | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| **1.Gürcüstan** | 0.099 | 0.099 | 0.099 | 0.099 | 0.067 |
| **2.Kanada** | 0.113 | 0.113 | 0.113 | 0.113 | 0.110 |
| **3.Böyük Britaniya** | 0.172 | 0.172 | 0.158 | 0.158 | 0.153 |
| **4.Sinqapur** | 0.144 | 0.144 | 0.147 | 0.147 | 0.155 |
| **5.Qazaxıstan** | 0.164 | 0.164 | 0.167 | 0.167 | 0.168 |
| **6.Latviya** | 0.191 | 0.191 | 0.196 | 0.196 | 0.196 |
| **7.Türkiyə** | 0.209 | 0.209 | 0.214 | 0.214 | 0.213 |
| **8.Azərbaycan** | 0.214 | 0.214 | 0.214 | 0.214 | 0.219 |
| **9.ABŞ** | 0.228 | 0.228 | 0.229 | 0.229 | 0.228 |
| **10. Litva** | 0.229 | 0.229 | 0.229 | 0.229 | 0.229 |
| **11. Yaponiya** | 0.261 | 0.261 | 0.249 | 0.249 | 0.238 |
| **12. İspaniya** | 0.299 | 0.299 | 0.253 | 0.253 | 0.243 |
| **13. Avstraliya** | 0.243 | 0.243 | 0.245 | 0.245 | 0.244 |
| **14. Rusiya** | 0.258 | 0.258 | 0.251 | 0.251 | 0.245 |
| **15. Almaniya** | 0.246 | 0.246 | 0.247 | 0.247 | 0.247 |
| **16. İtaliya** | 0.331 | 0.331 | 0.314 | 0.314 | 0.270 |
| **17. Meksika** | 0.265 | 0.265 | 0.266 | 0.266 | 0.271 |
| **18. Misir** | 0.259 | 0.259 | 0.252 | 0.256 | 0.271 |
| **19. Yunanıstan** | 0.290 | 0.290 | 0.294 | 0.294 | 0.300 |
| **20. Fransa** | 0.336 | 0.336 | 0.317 | 0.317 | 0.305 |
| **21. Çin** | 0.343 | 0.343 | 0.360 | 0.360 | 0.345 |

Mənbə: Müəllif tərəfindən hesablanmışdır



Hesablanan sub-indeksdə nisbi mərkəz 0,225-dir. Tədqiq edilmiş 21 ölkənin 8-i nisbi mərkəzdən sağda, 13-ü isə nisbi mərkəzdən solda yerləşir. İEOÖ-lər (adambaşına hesablanan ÜDM-i 35 min dollardan az olan) şkala üzərində nisbi mərkəzə nəzərən təxminən bərabər paylanmışdır. İEÖ-də isə çoxluq (11 ölkədən 9-u) sol tərəfə meyilli olsa da, yalnız Böyük Britaniya və Kanada sağ qütbdə yer almışdır.

**Şkala 1.**

**Dövlət maliyyəsi sub-indeksi üzrə tənzimləmənin təsiri (2018)**




Dövlət maliyyəsi göstəricisinin 2018-ci ilə görə mehmanxana fəaliyyətinə ən az təsir göstərən ölkə Gürcüstan (0,067), ən çox təsir göstərən ölkə isə Çindir (0,345). Bu göstərici üzrə ən az təsir göstərən ölkələrin ilk beşliyini Kanada (0,110), Böyük Britaniya (0,153), Sinqapur (0.155) və Qazaxıstan (0.168) tamamlayır. Çin (0,345), Fransa (0,305), Yunanıstan

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

(0,300), Misir (0,271) və Meksika (0,271) turizm və mehmanxana sektoruna dövlət xərcləri və bu sektora tətbiq olunan vergi dərəcələri göstəricisinə görə ən çox tənzimləmə edən ölkələrin ilk beşliyini tamamlayırlar. Azərbaycan 0,219 sub-indeksdə aldığı qiymətlə İtaliya (0,270), Almaniya (0,247), Yaponiya (0,238), ABŞ (0,228) kimi adambaşına hesablanan ÜDM-i 35 min dollardan daha çox olan, həmçinin Litva (0,229), Meksika (0,271) və Yunanıstan (0,300) kimi nisbi mərkəzi keçməmiş ölkələrə nisbətən soldan-sağa sıralamada ikinci onluqda (14-cü yerdə) yerləşir. Dövlətlərin fiskal alətləri ilə tənzimləmə mexanizmlərinin məqsədləri bir-birlərindən fərqlənir. Bir sıra ölkələr turizm və mehmanxana sektorunu iqtisadiyyatlarının əsas sahələrindən biri kimi seçərək onun inkişafına təkan vermək üçün bır sıra stimullaşdırıcı tədbirlər həyata keçirir. Bu stimullaşdırıcı tədbirlər mehmanxanalara qoyulan vergi dərəcələrinin aşağı salınmasında və turizm və mehmanxanalara ayırmaların dövlət büdcəsindən ümumi ayırmalarda pay nisbətinin çox olmasında özünü göstərir. Bu iqtisadi kodeksin bəzi ölkələrdə pozulduğunu müşahidə etmək olar. Həmin ölkələrdə iqtisadi kodeksin pozulmasının əsas səbəbi kimi, mehmanxana sektorunda qarşıya qoyulan hədəflərə çatdıqdan sonra dövlətin buradan qazanc güdməsindən ibarətdir. Dövlət bu sektordan gələn gəlirlərlə qarşıya qoyulan hədəfə çatdıqda sonra digər sektorların stimullaşdırılmasını həyata keçirməyə imkan əldə etmiş olur.

Dövlət maliyyə alt indeksini təşkil edən iki göstəricidən biri turizm və mehmanxanalara dövlət büdcəsindən ayırmaların ümumi ayırmalardakı payıdır. Bu rəqəm həm vergi dərəcələrini artırmaqla (büdcə gəlirlərində payını artırmaqla), həm də mehmanxanalara tətbiq olunan vergi dərəcələrini olduğu kimi saxlamaqla (bəzən hətta aşağı salmaqla) vergi yığımında şəffaflığı təşkil etməklə artırmaq olar. Bu iki qərəzli iqtisadi siyasətdən hansının turizm və mehmanxanalara dövlət büdcəsindən ayırmaların ümumi ayırmalardakı payını artırmasından asılı olmayaraq, dövlət maliyyəsi alt indeksinin artması və iqtisadiyyatın geridə qalması təəssüratı yaranır. Lakin, ikinci vəziyyətdə, iqtisadiyyat faktiki olaraq geridə qalmır, çünki maliyyə intizamının güclənməsi (və ya zəifləməsi) iqtisadiyyata liberal fəaliyyət göstərən xüsusiyyətlər vermir (maliyyə intizamının dirijistliyi dövlət müdaxiləsinin modelləşdirmə formalarına tətbiq edilmir). Mehmanxanalara tətbiq olunan vergi dərəcələrinin azaldılması vergidən yayınma səbəbindən vergi yığımlarının artmasına baxmayaraq iqtisadiyyatın sağlıq (liberallıq) səviyyəsini artırır.



**Nəticə**

Mehmanxana fəaliyyətinə dövlət maliyyəsi sub-indeksinin təsirinin təhlili göstərir ki, sub-indeks üzrə göstəricidə liberal və ya dirijist ölkələrin inkişaf dinamikası bir-birindən fərqləndirir. İEÖ-lərdə digər ölkələrlə müqayisədə dövlət büdcələrindən mehmanxanalara ayırmalar çox olsada, tətbiq olunan vergi dərəcələri də eyni zamanda yüksəkdir. Mehmanxana fəaliyyəti əvvəlki illərə baxdıqda belə nəticəyə gəlmək olar ki, ümumi nəticədə İEÖ-lərin qismən liberal və qismən dirijist olmalarının əsas səbəbi budur.  Ölkələrin iqtisadi inkişafına bir sıra amillər də təsir edir. İnkişaf etmiş ölkələr turizm və mehmanxana sektorlarını inkişaf etdirmək üçün ilk dövrlərdə vergi dərəcələrini aşağı səviyyədə müəyyən edir və dövlət büdcələrindən bu sahəyə ayırmaları yüksəldir. Sektor inkişaf etdikdən sonra büdcədən bu sektora ayırmalar qismən azaldılıb və tam əksinə bu dəfə vergi dərəcələri artırılıb. Bu səbəbdən dolayı həmin ölkələrin dövlət büdcəsi gəlirlərində turizm və mehmanxanaların payı yüksəkdir. Son nəticədə dövlət maliyyəsi sub-indeksinə görə ölkələrin təsir mexanizmləri qismən dirijist və qismən liberal yönümlü olması məqsədəuyğundur.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**


1. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsi, İqtisad Universiteti, Bakı, 2011.
2. Hüseynova A.C. Qiymətlərin dövlət tənzimlənməsi, metodik vəsait, Bakı, 2001. Səf 43-52
3. Məmməd Z.F. Pul, kredit, banklar. Azərnəşr, Bakı, 2010. Səf 43-46, 81-87.
4. N.Müzəffərli. İqtisadiyyatın sosialyönlüyü sağçı və solçu sistemlərdə. – Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2014. səf 20-35
5. Nelson, R. (1959). The Simple Economics of Basic Scientific Research. – Joumal of Political Economy, Vol.67, No.3, pp.323-348. 1959 [http://cstpr.colorado.edu/students/envs_5100/nelson_1959.pdf].
6. Shi, Y., Zhang, L., Tian, Y. and Li ,X. (2015). Intelligent Knowledge. Study Beyond Data Mining. – Springer Berlin Heidelberg, New York, Dordrecht-London, 2015, 150 p.
7. World Bank, Doing Businees Report , Washington, 2015. P. 152-166
8. World Economic Forum, The Travel and Tourism Competitiveness Index Report, 2019. Page 82



***Фахраддин Байрам оглы Бабазаде***

***Акбар Саттар оглы Гусейнов***


***Резюме***


*В результате приоритета туризма в ненефтяном секторе можно определить пути быстрого развития гостиничного бизнеса в последние годы. Основная цель исследования - найти финансовые проблемы гостиничного бизнеса и пути их решения. С другой стороны, данная статья проясняет вопросы правильного развития гостиничного сектора в Азербайджане и эффективного использования экономических ресурсов в этой сфере. В результате расчетов были проанализированы положительные и отрицательные аспекты финансового регулирования стран этого сектора.*



***Ключевые слова:*** *гостиничный бизнес, государственные финансы, рыночные отношения, общественное производство, налоговые ставки, бюджетная система, индекс конкурентоспособности.*





***Fakhraddin Bayram Babazade***

***Akbar Sattar Huseynov***


***Summary***


*As a conclusion of the precedence of tourism in the non-oil sector, it is possible to determine the path of swift development of the hotel business in the years to come. The leading purpose of the study is to find the financial problems of the hotel business and the way to unravel them. On the other hand, this article elucidates the issues of appropriate growth of the hotel sector in Azerbaijan and the effective use of economic resources in this area. The outcomes of the calculations were analyzed positive and negative aspects of financial regulation in this sector.*



***Keywords:*** *hotel business, public finance, market relations, public production, tax rates, budget system, index of competitiveness.*

***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***

***Daxil olub: 04.11.2021.***

***Çapa qəbul olunub: 12.11.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*

*© www.economics.com.az*